*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received :20.07.2023*
*Kabul tarihi |Accepted: 25.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Əsəd Qurbanlı**

*https://orcid.org/0000-0002-9876-9832*
*Azerbaijan National Academy of Sciences Bakikhanov Institute of History leading researcher, doctor of philosophy in history, associate professor, Azerbaijan, qurbanli.68@mail.ru*

***Atıf Künyesi | Citation Info***
Qurbanlı, Ə. (2023). Ümummilli Lider Heydər Əlıyev Siyasətində Ermənistandan (Qərbi Zəngəzur) 1991-Ci İldə Deportasiya Edilmış Nüvədi Qaçqınlarına Maddi-Mənəvi Dəstək Məsələsi. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 291-297.

# Ümummilli Lider Heydər Əlıyev Siyasətində Ermənistandan (Qərbi Zəngəzur) 1991-Ci İldə Deportasiya Edilmış Nüvədi Qaçqınlarına Maddi-Mənəvi Dəstək Məsələsi

***Xülasə***

*Məqalə Zaqafqaziya MİK tərəfindən 1927-1929-cu ildə Zəngəzurun Nüvədi kəndinin Ermənistan SSR-ə verilməsi və Azərbaycanla Naxçıvan arasında Meğri inzibati vahidin yaradılması və kənd sakinlərinin 1991-ci ildə ermənilər tərəfindən zorakı deportasiyasından bəhs edir. Kənd*

*əhalisinin 3 il ərzində ermənilərə qarşı göstərdiyi direnişi, onların tarixi yurdlarından qovulması və bu illərdə Naxçıvan Ali Məclisinin sədri olmuş Ümummilli lider Heydər Əliyevin nüvədililərə göstərdiyi siyasi, maddi-mənəvi köməklik, eyni zamanda onların yenidən öz kəndlərinə qaytarılıb təhlükəısiz şəraitdə yaşamaları üçün böyük dövlət xadiminin göstərdiyi səylər geniş təhlil edilmişdir.Müəlif həmçinin Sovetlər dönəmində ədalətsiz şəkildə Ermənistana verilmiş, bu türk kəndinin deportasiya edilməsindən sonra böyük şəxsiyyətin, Heydər Əliyevin Nüvədiylə bağlı qarar və önləmlərini, nüvədililərə verdiyi yüksək dəyər və qiymətli fikirlərini olduğu kimi çatdırmaq, kəndin Ermənistana verilməsi və deportasiyası tarixini araşdırmaqdır.*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, Ermənistan, Nüvədi, deportasiya*

# The Issue of Material and Moral Support to Novadi Refugees Deported From Armenia (Western Zangazur) in 1991 Under National Leader Hayder Aliyev's Policy

***Abstarct***

*The article talks about the transfer of Nuvedi village of Zangezur to the Armenian SSR by the Transcaucasia MIC in 1927-1929 and the creation of Megri administrative unit between Azerbaijan and Nakhchivan and the violent deportation of the villagers by the Armenians in 1991. Aliyev's political, material and moral assistance to the nuclear speakers, as well as the efforts of the great statesman to return them to their villages and live in safe conditions, were extensively analyzed. The author also analyzed the history of the decision and measures of the great person, Aliyev regarding Nuvedi, as well as the high value and valuable ideas he gave to the nuclear language, as well as the history of the transfer and deportation of the village to Armenia, after the deportation of the population of this Turkish village, which was unfairly given to Armenia during the Soviet era. İs to form a correct idea about it.*

***Keywords:*** *Heydar Aliyev, Azerbaijan, Armenia, Nuclear, deportation*

## Giriş

Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra tirilmiş torpaqlar məsələsi aktuallaşmışdır. Azərbaycan Respublikası prezidenti İlham Əliyev Azərbaycan- Ermənistan arasında sülh danıqları və sərhədlərin müəyyənləşdirilməsinin və eyni zamanda bölgədə davamlı sülhün təminatı kimi qonşularımızın torpaqlarımıza olan əsilsiz iddialardan əl çəkilməsi vacibliyinini dəfələrlə öz çıxışlarında bildirmişdir. Azərbaycan Respublikası prezidenti İlham Əliyevin bölgədəki sülh səyləri eyni zamanda 1991-ci ildə Nüvədidən qaçqın düşmüş kənd sakinlərinin öz yurd yerlərinə qayıtmaq istəyini də gücləndirmişdir. Bu kontekstdə Nüvədi kəndinin başına gətirilmiş hadisələri mənbələr və sənədlər əsaında açıb göstərmək,ən çətin vaxtda Heydər Əliyevin nüvədililərə göstərdiyi köməklikləri elmi

ictimaiyyətin diqqətinə çatdırmaqdır. Azərbaycan 1920-ci ildə işğal edildikdən sonra Azərbacan torpaqları Zaqafqaziya MİK tərəfindən 1927-1929-cu illərdə ədalətsiz şəkildə hissə-hissə kəsilərək azərbaycan tarixi torpaqlarında yaradılmış Ermənistan SSR-ə verilmişdi.

Zaqafqaziya MİK qərarı ilə 1929-cu il fevralın 18-də Azərbaycan SSR-nin Ordubad rayonundan Qərçivan, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir, Tuğut kəndləri Ermənistan SSR-ə verilmiş və bu kəndlərin bazasında 1930-cu ildə Meğri qəzası yaradılmışdı (Azərbaycan Respublikası PİİİSSA: f 1. siy 55, iş 69). Bu türk- müsəlman kəndlərindən ikisi 1939-cı ilin sentyabrında Emənistan hökuməti tərəfindən ləğv edilmiş,Tuğut kəndi erməni kəndi Şvanidzorla, Ernəzir isə Nüvədi kəndinə birləşdirilmişdi (Nüvədililərə kömək lazımdır, Şərq Qapısı qəzeti, 1991). Bu kəndlərin Emənistana verilməsilə Naxçıvanla Azərbaycanı ayıran xətt daralmış, anklav daha da genişlənmişdir. Azərbaycan Respublikası prezidenti Heydər Əliyev bununla bağlı çıxışlarının birində qeyd edirdi ki Ermənilərin bundan əsas məqsədi Naxçıvanı Azərbaycandan ayrı salmaq və anklavını genişləndirmək və onu gələcəkdə Ermənistanın tərkibinə birləşdirmək idi (Qurbanlı, 2023).

Ermənistan SSR-ə verilmiş bu kəndləri iki respublika arasındakı hələ də "mübahisəli" sayılır, Sovet Azərbaycanı hökuməti tərəfindən tanınmamışdı. "Sov. İKP MK-nın 10, 20, 23 iyun 1968-ci il tapşırığına uyğun SSRİ Nazirlər Soveti 1968-ci il noyabrın 5-də məsələni müzakirə etmiş, iki respublika arasında 1927-1929-cu ildə çəkilmiş sərhədlərin tanınması üçün Ermənistan SSR və Azərbaycan SSR hökumətlərinə göstəriş vermişdi (Azərbaycan Respublikası PİİİSSA: f 1. siy 55, iş 69). Azərbaycan KP MK Bürosu öz növbəsində 1968-ci ilin 26 noyabrında sərhədlərin tanınması ilə bağlı sənədlərin hazırlanıb Azərbaycan SSR Ali Sovetinə təqdim edilməsini tapşırmışdı (Azərbaycan Respublikası PİİİSSA: f 1. siy 33, iş 24). Azərbaycan SSR Ali Soveti isə 1969-cu il 7 may tarixində Azərbaycandan Ermənistana verilmiş torpaqları ratifikasiya etmiş, bu qərar nəticəsində bir sıra ərazilər kimi Nüvədi kəndi Ermənistanın hüquqi tabeliyinə keçmişdir (Kərimli, 1996). Hətta Azərbaycanın o vaxtkı rəhbərlyi o, cümlədən Heydər Əliyev SSRİ KP MK tərəfindən onlara göstərilən təzyiqilə üzləşmişdi. Heydər Əliyev sonralar öz çıxışlarının birində deyirdi ki, bu məsələ ilə bağlı Moskvadan onlara çox böyük təzyiqlər edirdilər...” (Qurbanlı, 2023). Sov. İKP MK katibliyinin göstərişi ilə Azərbaycan KP MK-in I katibi H. Əliyev, Ermənistan KP MK-in I katibi A. Koçinyan və SSRİ Kənd Təsərrüfatı Naziri V. Maskeviç arasında 1969-cu ilin noyabrın 17-də bu “mübahisə” ilə bağlı sənəd imzalanmışdı (Azərbaycan Respublikası DA: f.379, siy.3, iş 2035). Eyni zamanda Azərbaycan rəhbəri A. Koçinyanla görüşdə iki respublika arasında müəyyən edilmiş sərhədlərə yenidən baxılmasının insidentə gətirib çıxaracağı

nəzərə alaraq, bu qərarların icrası dayandırılmış, Heydər Əliyevin təkidi ilə Ermənistan tərəfdən ərazi iddiası irəli sürməyəcəyi razılaşdırılmışdı. Heydər Əliyev öz çıxışlarının birində deyirdi ki, mən 1969- cu ilin iyul ayında I katib seçiləndən sonra, mən bunu araşdırdım və yəqin etdim ki, buna razılıq verə bilmərəm. Nə qədər ki, Azərbaycanda işlədim, o qərar həyata keçmədi.1985-ci ildə Ermənistan tərəfi qərarın həyata keçməsinə nail olmuşdur (Qurbanlı, 2023). Beləliklə, Heydəır Əliyev tərəfindən ermənilərin bu iddiasının qarşısı qətiyyətlə alınmş, Azərbaycanın bir qarış torpağı belə Ermənistana verilməmişdir. Heydər Əliyev iqtidarda olduğu müddətdə Ermənistan buna cəsarət etmədi. Heydər Əliyevin Sov.İKP MK Siyasi Büro üzvülüyindən və SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsindən məcburi istefasıından sonra Azərbaycanın Yuxarı Qarabağ bölgəsinin Ermənistana birləşdirmək üçün bunu fürsət bilən ermənilərin fəl hərəkətə keçməyi ilə azərbaycanlıların qovulmasında yeni mərhələ başlayır.

Ermənistandan 250 000 mindən çox Azərbaycan türkü 1988-ci ildə Ermənistandan deportasiya edilsədə, Nüvədi sakinləri kəndi tərk etməmişdi.Nüvədi sakinlərinin 1989-cu il oktyabrın 10-da Azərbaycan xalqına ünvanladıqları müraciətdə deyilirdi ki, rayon mərkəzinə gedən kənd sakinləri ermənilər tərəfından döyülür, təhqir olunur. Biz Ermənistan vətəndaşı kimi hesaba alınmırıq (Nüvədililərə kömək lazımdır, Şərq Qapısı qəzeti, 1991). Ermənistanda rəhbərliyi və millətçi dairələr yeganə türk kəndinin qalmasını qəbul etmir, əhali isə bütün buna baxmayaraq öz yurdlarını tərk etmirdilər. Kənd sakini H. Musayev Meğri rayon prokuroruna açıq məktubda yazırdı ki, Nüvədinin əzəli də, indisi də nüvədililərə məxsusdur..." (Kərimli, 1996). Kəndi "qoruyan " KQB komandir və hərbçiləri tərəfindən əhalini köçürmək məqsədilə kənd tez-tez atəşə tutulurdu.Onların xəyanəti nəticəsində 1991-ci il avqustun 7-dən 8-nə keçən gecə kənd ermənilərə təhvil verilmişdi.

Hərbçilər kənd sakinlərindən ərazini təcili tərk etmələrini tələb etmiş və bildirmişlər ki, komandanlıq onların təhlükəsizliyinə heç bir təminat vermirlər. Azərbaycan SSR DTK-in məlumatında bu əməliyyata Ermənistan Daxili İşlər Nazirinin müavini Q. Qriqoryanın rəhbərlik etdiyi bildirilirdi (Nüvədi hadisələrinə dair, Həyat qəzeti, 1991). Kənd sakinləri bundan sonra kəndi tərk edərək Ermənistan Azərbaycanla həmsərhəd Zəngilanın Vejnəli kəndində məskunlaşsalarda qaçqınlıq həyatı ilə barımaq istəmir,öz kəndlərinə qayıtmaq üçün mübarizə aparırdılar.

Azərbaycan Respublikası prezidenti Heydər Əliyev 14 yanvar 1998-ci il Naxçıvan Muxtar Respublikası Konistitusiyasının müzakirəsi zamanı Nüvədini mübariz əhalisi ilə bağlı öz şıxışında bildirirdi: ‘’…Mənim xatirimdədir. Hətta Ermənistanın ərazisindən

azərbaycanlıların əksəriyyəti çıxarıldığı halda, 1991-ci ildə onlar Nüvədidən çıxmırdılar,sonradan onları zorla çıxardıb Zəngilandakı Vejnəli kəndinin yanına gətirdilər'' (Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yekun nitqindən, Xalq qəzeti, 1998). Azərbaycanın o vaxtkı rəhbərliyindən heç bir kömək görməyən kənd sakinləri Naxçıvan Ali Məclisinin sədri, Heydər Əliyevi xalqın xilaskarı və yeganə ümiud yeri bilir, ona müraciət edərək nüvədililərin öz kəndlərinə qayıtmaq kimi haqlı tələblərinin müdafiə edilməsində onlara kömək göstərməyini xahiş etmişdilər.

Ulu öndər Heydər Əliyevin xüsusi tapşırığı ilə Nüvədililərin bu müraciəti ilə əlaqədar Ali Məclisin deputatları, hökumətin məsul şəxsləri və ictimai xadimlərindən ibarət nüməyəndə heyəti 1991-ci il oktyabrın 17-də Zəngilanın Vejnəli kəndində olmuş, burada məskunlaşmış nüvədili qaçqınlarla görüşürmüşlər. Nümayəndələrin burada olarkən hazırladıqları arayışda həmçinin deyilirdi ki, 3 aydan çox burada məskunlaşmış nüvədili qaçqınlar heç bir şəraiti olmayan söyuq çadırlarda yaşayır, xüsusən də 70 ailənin vəziyyəti daha dözülməzdir (Nüvədi hadisələrinə dair, Həyat qəzeti, 1991).

Heydər Əliyev Naxçıvanın çətin iqtisadi durumda və əhalisinin ağır blokada şəraitinda yaşamasına baxmayaraq qaçqınlara burada məskunlaşmlış qaçqınlara yardım göstərir, imkan daxilində onların problemlərini yüngülləşdirmək məqsədilə yardım məqsədilə onlara hətta ərzaq məhsulları göndərmişdi (Nüvədi hadisələrinə dair, Həyat qəzeti, 1991). Naxçıvandan gəlmiş nümayəndələrin Heydər Əliyevə verdikləri məlumatlarda bildirilirdi ki, Nüvədililər Azərbaycan Respublikası prezidentinə, Azərbaycan Respublikası Ali Sovetinə və Azərbaycan Respublikası Nazirlər Sovetinin rəhbərliyinə müraciət etsələr də bu zavallı insanlara heç bir köməklik göstərilməmiş, bu səbəbdən kənd sakinlərinin bir çoxu Bakıda, Sumqayıtda Gəncədə yaşayan qohumlarının yanına köçmüşlər (Nüvədi hadisələrinə dair, Həyat qəzeti, 1991). Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev nüvədililəirin dogma kəndlərinə qayıtmaq istəyi ilə bağlı ona edilən müraciətləri nəzərə alaraq bu məsələni Ermənistan Respublikasının prezidenti L. Ter-Petrosyanla və Mığrı rayon rəhbərləri ilə olan telefon danışıqlarında onların bu haqlı tələblərini dəfələrlə gündəmə gətirmişdi.

Böyük dövlət xadimi Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri və Azərbaycan Respublikası Ali Soveti sədr müavini, eyni zamanda bir deputat kimi nüvədililərin düçar olduğu bu ağır durumu Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında müzakirə edilməsi məsələsini dəfələrlə qaldırmış, hökumətin bununla ələqadar Azərbaycan dövləti səviyyəsində təcili tədbirlər görülməsini onlardan xahiş etmişdi (Nüvədi hadisələrinə dair,

Həyat qəzeti, 1991). Heydər Əliyev Nüvədi kəndi haqqındakı tarixi çıxışlarının birində deyirdi: ‘’Bu kənd 1929-cu ildə Azərbaycanın tərkibindən Ermənistana verilibdir. Nüvədi tamamilə qədim və çox böyük ənənələri olan bir kənddir. Deyə bilərəm ki, həmin Nüvədi kəndinin əhalisi çox dəyanətli insanlardır. Onları oradan çıxara bilmirdilər... Sonradan onlar Naxçıvana, mənim yanıma gəldilər və imdad istədilər. Amma mənim özüm Naxçıvanı çox çətinliklə qoruyurdum, onlara nə edə bilərdim?Buna baxmayaraq,onda bizim imkanımız var idi. Zəngilan rayonunun Vejnəli kəndinin yanında yerləşən çadırlara, nüvədililərin yanına vertolyot vasitəsi ilə nümayəndələr göndərdim, onlarla əlaqə saxlayırdıq…” (Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yekun nitqindən, Xalq qəzeti, 1998). Həmin illərdə ermənilərin təqsiri üzündən regionda baş verən faciəli hadisələr və milli məsələnin həddən artıq kəskinləşməsi Nüvədi sakinlərinin yenidən öz kəndlərinə qayıtmaq istəyini arxa plana keçirdi.

**Nəticə**

Torpaqlarımızın 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistanın işğalından azad edilməsi və vaxtı ilə Ermənistandan deportasya olunmuş Azərbaycan türklərinin tarixi ərazilərimizə yenidən qayıdacağına ümüdləri artırmışdır. Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyevin bölgədəki barış səyləri həm də Ermənistandan qaçqın düşmüş soydaşlarımızın yenidən öz yurd yerlərinə qayıtması üçün şəraitin yetişdiyini göstərir. Nüvədi kəndinin strateji cəhətdən Zəngəzur dəhlizinin üstündə yerləşməsi də kənd sakinlərinin öz döğma yurdlarına qayıdıb məskunlaşmasının əhəmiyyətini artırır. Kənd sakinlərinin öz yurdlarında məskunlaşmaq istəyi Azərbaycanı Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizində sülh və sabitliyin təminatıdır. Hətta bu Naxçıvanın güvənliyi məsələsidir.

**Ədəbiyyat**

Azərbaycan Respublikası PİİİSSA: f.1,siy.56, iş 72.

Azərbaycan Respublikası DA: f.379,siy.3, iş 2035.

Azərbaycan Respublikası PİİİSSA: f 1. siy 55, iş 69

Azərbaycan Respublikası PİİİSSA: f 1. siy 33, iş 24.

Azərbaycan Respublikası PİİİSSA: f.1, siy. 56, iş 49.

Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yekun nitqindən. (1998, №14). *Xalq qəzeti.*

Kərimli, A. (1996). *Zəngəzurun qeyrət qalası- Nüvədi.* Azərbaycan.

Qurbanlı, Ə. Nüvədinin əzəli də, indisi də nüvədililərə məxsusdur. (2023, 29 mart). *Yeni Azərbaycan qəzeti.*

Nüvədi hadisələrinə dair. (1991, 10 avqust). *Həyat qəzeti.*

Nüvədililərə kömək lazımdır. (1991). *Şərq Qapısı qəzeti, (Naxçıvan Ali Məclisin orqanı) №200(16.040.*

Ermənistan SSR Meğri rayonunun Nüvədi kəndinin sakinlərinin Azərbaycan xalqına müraciəti. (1989, 4 oktyabr). *Azərbaycan qəzeti, (Qarabağa Xalq Yardımı Komitəsinin orqanı)*